https://doi.org/10.36719/2706-6185/41/143-146

**Əli Əhmədli**
Bakı Biznes Universiteti
magistrant
aliaxmedli2002@gmail.com

# Sənaye müəssisələrində pul vəsaitlərinin hərəkəti və təhlilinin nəzəri aspektləri

**Xülasə**

Bazar münasibətləri şəraitində sənaye müəssisələrinin uğurlu fəaliyyəti mövcud resurslarından, xüsusən də pul vəsaitlərindən səmərəli istifadə ilə bilavasitə bağlıdır. Sənaye sferasında sahibkarlığın inkişafı, müəssisələr arasında birbaşa təsərrüfat əlaqələrinin intensivləşdirilməsi, məsrəflərinin minimuma endirilməsinin vacib olduğu bir şəraitdə pul vəsaitlərinin hərəkətinin optimallaşdırılması kimi məsələlərin həlli mühasibat uçotu və iqtisadi təhlilin yeni prinsiplər əsasında qurulmasını zəruri edir.

Bu baxımdan məqalədə pul vəsaitlərinin uçotu və təhlilinin bir sıra nəzəri məsələləri iqtisadi ədəbiyyatlara istinadən tədqiq edilmişdir. Eyni zamanda məqalədə müasir şəraitdə sənaye müəssisələrində pul vəsaitlərinin uçotu və təhlilinin nəzəri aspektləri tədqiq edilmişdir. Sənaye müəssisələrinin mövcud pul vəsaitlərindən səmərəli istifadənin optimallaşdırılmasının vacibliyi göstərilməklə həlli istiqamətləri nəzəri baxımdan əsaslandırılmışdır.

***Açar sözlər:*** *sənaye müəssisələri, pul vəsaitləri, pul vəsaitlərinin ekvivalentləri, nağd vəsaitlər, hesablaşma hesabı, pul vəsaitlərinin hərəkəti*

**Ali Ahmadli**
Baku Business University
Master student
aliaxmedli2002@gmail.com

# Theoretical Aspects of Cash Flow and Analysis in Industrial Enterprises

**Abstract**

In the conditions of market relations, the successful operation of industrial enterprises is directly related to the effective use of their available resources, especially cash. The development of entrepreneurship in the industrial sphere, the intensification of direct economic relations between enterprises, the solution of such issues as the optimization of cash flows in a situation where it is important to minimize costs require the establishment of accounting and economic analysis on the basis of new principles.

From this point of view, in the article, some theoretical issues of cash accounting and analysis were studied with reference to economic literature. At the same time, theoretical aspects of cash accounting and analysis in industrial enterprises in modern conditions were studied in the article. The solution directions of industrial enterprises are justified from a theoretical point of view, showing the importance of optimizing the effective use of available funds.

***Keywords:*** *industrial enterprises, cash, cash equivalents, cash, settlement account, cash flow*

## Giriş

Bazar münasibətləri şəraitində sənaye müəssisələrinin uğurlu fəaliyyəti mövcud resurslarından səmərəli istifadə ilə bilavasitə bağlıdır. Milli iqtisadiyyatın bütün sahələrində, xüsusilə emal sənayesində sahibkarlığın inkişafı, müəssisələr arasında birbaşa təsərrüfat əlaqələrinin intensivləşdirilməsi, məsrəflərinin minimuma endirilməsinin vacib olduğu bir şəraitdə səmərəliliyin ən mühüm göstəricilərindən olan məhsulun (iş və xidmətlərin) maya dəyərinin azaldılması, pul vəsaitlərinin

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

hərəkətinin optimallaşdırılması kimi məsələlərin həlli mühasibat uçotu və iqtisadi təhlilin yeni prinsiplər əsasında qurulmasını zəruri edir.

**Tədqiqat**

Bütövlükdə respublikamızda aparılan davamlı iqtisadi islahatlar, müəssisələrə verilən iqtisadi azadlıqlar və onlarin daxili və xarici bazarlarda qarşılaşdıqları rəqabət mübarizəsi, səmərəli idarəetmə sisteminin qurulması, elmi baxımdan əsaslandırılmış uçot sisteminin təmin olunması, resursların müasir metodlar əsasında idarə edilməsi, daha səmərəli qərarların qəbul edilməsinə imkan yaradan uçot və təhlil üsullarından istifadə edilməsi kimi məslələri aktuallaşdırıb (Müslümov, Kazımov, 2012, s. 246).

Müasir şəraitdə fəaliyyət göstərən hər bir sənaye müəssisəsinin qarşısında duran ən vacib məsələ mövcud pul resurslarından səmərəli istifadə etməklə özlərinin rəqabətqailiyyətinin təmin edilməsi və yüksəldilməsidir. Əlbəttə ki, müəssisənin rəqabətqabiliyyətliliyi onun səmərəli fəaliyyət göstərməsinin təzahürüdür. Digər tərəfdən, sənaye müəssisəsinin maliyyə-təsərrüfat fəaliyyətinin səmərəliliyi öz növbəsində müəssisənin işgüzar aktivlərindən, daha dəqiq desək, mövcud dövriyyə aktivlərindən, pul vəsaitlərindən səmərəli istifadəsi səviyyəsindən asılıdır.

Son illlər respublikamızda sənaye sahələrinin inkişafına xüsusi önəm verilmişdir. Aparılan bütün tədbirlər nəticəsində sənayedə, xüsusən də sənayenin qeyri-neft sektorunda iqtisadi artım əldə edilmişdir. Qeyd olunanlar aşağıdakı cədvəl məlumatlarında daha aydın görünür:

**Cədvəl 1**

Sənaye məhsulunun (işlərin, xidmətlərin) mülkiyyət növləri üzrə bölgüsü, (milyon manat)

| Göstəricilər | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|
| **Bütün mülkiyyət növləri üzrə** | **46999,2** | **37269,9** | **55229,1** | **86383,4** | **67296,0** |
| Dövlət mülkiyyəti | 8422,4 | 8101,7 | 9194,3 | 10670,7 | 11664,4 |
| Qeyri-dövlət mülkiyyəti | 38576,8 | 29168,2 | 46034,8 | 75712,7 | 55631,6 |
| Xüsusi mülkiyyət | 7200,8 | 7852,0 | 9737,0 | 10379,0 | 10823,5 |
| Birgə (qarışıq) mülkiyyət | 940,8 | 972,1 | 1568,1 | 1990,6 | 2263,5 |
| Xarici mülkiyyət | 30435,2 | 20344,1 | 34729,7 | 63343,1 | 42544,6 |

**Mənbə:** *Müəllif tərəfindən ADSK-nin məlumatları əsasında hazırlanmışdır (www.stat.gov.az/source/industry)*

Cədvəl rəqəmlərindən göründüyü kimi, sənaye məhsulunun həcmi 2019-cu ildə 46999,2 milyon manat, 2023-ci ildə isə 67296,0 milyon manat təşkil etmişdir. 2023-ci ildə 2019-cu ilə nisbətdə 43,1 % artım olmuşdur.

Qeyri-dövlət sektorunda sənaye məhsulunun həcmi 2023-ci ilə xüsusi çəkisi 82 faiz olmuşdur. Bütün bu göstəricilər qeyri-dövlət sektorunun davamlı inkişafını xarakterizə edir. Sənaye istehsalı sahəsində fəaliyyət göstərən müəssisələrin mülkiyyət növlərinə görə nisbəti də qeyri-dövlət sektorunun xeyrinə dəyişmişdir.

Sənaye sferasında yaranan bu inkişaf öz növbəsində həmin sferda mühasibat uçotunun və təhlil metodlarının təkmilləşdirilməsini tələb edir. Bu xüsusən likvid vəsait olan pul vəsaitlərinin uçotu və səmərəli istifadəsinin təhlilinə aiddir ("Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu, 2004).

Pul vəsaitləri və onların ekvivalentləri uçotu, hesablaşma əməliyyatları üzrə vəsaitlərin dövretməsini təmin edən nəticə etibarilə ən mühüm amildir. Hesablaşmaların vaxtlı-vaxtında və düzgün qaydada aparılması istehsal prosesinin zəruri şərtlərindən hesab edilir. Ölkəmizdə iqtisadiyyatın dinamik inkişafının təmin edilməsində, onun bütün ünsürlərinin ahəngdar və daha yüksək zirvəyə qaldırılmasında, bütün iqtisadi amillərlə bir yerdə, pul vəsaitləri və onların ekvivalentlərindən düzgün istifadənin və hesablaşmaların səmərəli təşkilinin də böyük əhəmiyyəti vardır (Səbzəliyev, Quliyev, 2014).

İstənilən mülkiyyət formalı müəssisənin səmərəli fəaliyyətinin vacib şərti kifayət qədər vəsaitin olması, habelə pul vəsaitlərinin hərəkətinin məharətlə idarə olunması, təşkilatın likvidliyini və ödəmə qabiliyyətini təmin etmək və onlar arasında balansının saxlanılmasıdır (Mahmudov, Zeynalov, İsmayılov, 2010).

Müasir iqtisadi ədəbiyyatda "Nağd pul axını" anlayışının yaranması kifayət qədər yenidir. Tədqiq edilən mövzuda iqtisadi ədəbiyyatların tədqiqi göstərdi ki, "pul vəsaitlərinin hərəkəti" anlayışı ilə bağlı çoxlu müxtəlif fikirlər mövcuddur. Müxtəlif aspektlərdə mövzunu tədqiq edən alimlərin nəzəri yanaşmalarını ümumiləşdirdikdə yaranan mənzərədən belə qənaətə gəlmək olar ki, elmi ədəbiyyatda vahid tərif və vahid təsnifat sistemi tam formalaşmamışdır ki, bu da nəzəri baxımdn "pul vəsaitlərinin hərəkəti" anlayışının aydınlaşdırılmasını tələb edir (Sadıqov, 2012, s. 686).

P. Merton pul vəsaitlərin hərəkətinə müəyyən dövrə onların mədaxili və məxarici üzrə pul kütləsinin axını kimi baxır və pul axını dinamik göstərici kimi qiymətləndirir. Müəssisəyə canlı orqanizm kimi baxan Dj. K. Ban Xorn pul axını müəssisənin qan dövranı kimi qiymətləndirir. Müəllifin fikrincə, pul axını fasiləsiz prosesdir və müəssisədə pul axını səmərəli idarə olunmazsa, müəssisənin fəaliyyətində axsamalar yaranar. Kostyrko R. A. pul vəsaitlərinin hərəkətini təsərrüfat prosesində zamanla bölüşdürülmüş vəsaitlərin daxil olması və xaricə axınının həcmi adlandırır (Kostyrko, 2013, s. 784). Leontyev V. E. və Boçarov V. V. hesab edirlər ki, pul vəsaitlərinin hərəkəti hesabat və ya planlaşdırılan dövr ərzində müəssisə tərəfindən alınan və ödənilən vəsaitlərin məbləğidir (Bocharov, 2012, s. 400). İ. A. Blank pul vəsaitlərinin hərəkətinin tərifini belə formalaşdırır: "Pul vəsaitlərinin hərəkəti investora qaytarılan vəsaitlər şəklində investisiyaların təsirini xarakterizə edən əsas göstəricidir" (Blank, 2012, s. 380). Selezneva N. N. və İonova A. F. zamanla pul vəsaitlərinin hərəkəti prosesini səciyyələndirir, onu "maliyyə dövriyyəsi" ilə məcazi şəkildə müqayisə etməklə təşkilatın ömrünü təmin edir (Selezneva, 2012, s. 583).

Yerli və xarici alimlərin böyük həcmli elmi əsərlərini öyrənərək, pul vəsaitlərinin hərəkəti anlayışının müqayisəsinə əsaslanaraq, "pul vəsaitlərinin hərəkəti" anlayışının bir neçə aşağıdakı xüsusiyyətə malik olduğu qənaətinə gələ bilərik:

- Pul axını – pul vəsaitlərinin hərəkətidir;
- Pul axını – dövr üzrə müəssisənin daxilolma və xaricolmalarıdır;
- Pul axını – müəssisənin fəaliyyətinin həyata keçirilməsi prosesində formalaşır.

Sənaye müəssisələrində hesablaşma əməliyyatlarının məqsədəuyğun və faydalı təşkili pul vəsaitlərinin və onların ekvivalentlərinin uçotunun təşkili, hesablaşma və kredit əməliyyatlarının aparılmasının səviyyəsindən çox asılıdır. Problemə bu mövqedən yanaşdıqda qeyd etmək vacibdir ki, pul vəsaitlərinin və onların ekvivalentləri üzrə hesablaşma əməliyyatlarının uçotu zamanı nağd və nağd-qeyri hesablaşmaların vaxtlı-vaxtında, düzgün və operativ sənədləşdirilməsinə, nəzərdə tutulmuş vaxtlarda pul vəsaiti üzrə hesablaşmaların vəziyyətinin inventarlaşdırılmasının aparılmasına, müəssisənin kassasında, bankdakı hesablaşma hesabında və digər hesablardakı pul vəsaiti üzrə qalıq və onun saxlanmasına mövcud nəzarətin təmin olunmasına, hesablaşma-ödəmə nizam-intizamının gözlənilməsinə, alınmış maddi dəyərlilərin, iş və xidmətlər üzrə pul vəsaitinin vaxtlı-vaxtında ödənilməsinin təmin olunmasına xüsusi diqqət yetirilməlidir (Sənaye. Azərbaycan Respublikasının Dövlət Statistika İdarəsi).

Sənaye müəssisələrində pul vəsaitlərinin hərəkətinin idarə edilməsi maliyyə menecerinin ən vacib fəaliyyət istiqamətlərindən biri olmaqla müəssisədəki digər idarəetmə sistemləri ilə sıx qarşılıqlı əlaqədədir. Təcrübədə müəssisənin pul vəsaitlərinin hərəkətinin səmərəliliyinin qiymətləndirilməsi mexanizmi müxtəlif üsullara əsaslanır. Pul vəsaitlərinin hərəkətinin təhlili aşağıdakı məqsədlərlə aparılır (Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti):

- müəssisənin cari likvidliyinə və ödəmə qabiliyyətinə nəzarət etmək,
- vəsaitlərin artıqlığı və çatışmazlığının səbəblərini müəyyən etmək,
- onların daxil olma mənbələrini və xaricolma istiqamətlərini müəyyən etmək.

## Nəticə

Sənaye müəssisələrinin ödəmə qabiliyyəti və likvidlik göstəriciləri mühasibat uçotunun hesablarında əks etdirilən pul vəsaitlərinin hərəkətininn optimallığından asılıdır. Buna görə də vəsaitlərin təhlili təsərrüfat subyektinin maliyyə-iqtisadi vəziyyətinin qiymətləndirilməsinə kömək edir, çünki o, müəssisənin ödəmə qabiliyyətini və likvidliyini qiymətləndirmə metodologiyasını tamamlaya bilər. Bu məqsədlə həm birbaşa, həm dolayı, həm də matris üsullarından istifadə edilə bilər.

## Ədəbiyyat

1. *Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti*. www.taxes.gov.az
2. Blank, I. A. (2012). *Osnovy finansovogo menedzhmenta*. Uchebnik. Nika-Tsentr: El'ga.
3. Bocharov, V. V., Leont'yev, V. V., & Radkovskaya, N. P. (2012). *Finansovyy menedzhment*. Uchebnik. Piter.
4. Kostyrko, R. A. (2013). *Finansovyy analiz*. Uchebnoye posobiye. Faktor.
5. Müslümov, S. Y., Kazımov, R. N. (2012). *Maliyyə təhlili*. Dərslik. CBS.
6. *"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu*. (2004).
7. Mahmudov, İ. M., Zeynalov, T. Ş., İsmayılov, N. M. (2010). *İqtisadi təhlil*.
8. Sadıqov, Ə. A. (2012). *Mühasibat uçotu*. Dərslik.
9. Selezneva, N. N., Ionova, A. F. (2012). *Analiz finansovoy otchetnosti organizatsii*. YUNITI-DANA.
10. Səbzəliyev, S. M., Quliyev, V. M. (2014). *İdarəetmə uçotu*. Dərslik. Elm və təhsil.
11. *Sənaye. Azərbaycan Respublikasının Dövlət Statistika İdarəsi*.
12. www.stat.gov.az/source/industry/

Daxil oldu: 10.09.2024
Baxışa göndərildi: 12.10.2024
Təsdiq edildi: 16.11.2024
Çap olundu: 30.11.2024